## Oruc Dadaşi Elman

### Dilbərim

Sənsiz beheşti neylirəm, cənnət özünsən dilbərim
Ol cənnətin cənnətliği, əlbət özünsən dilbərim.

Yarsız yaşanmaq ayrılıq, sənsiz yaşanmaq küfrüdür
Can səcdəmin imanısan, vəslət özünsən dilbərim.

Könlüm kimin hökmündədir, əqlim onun vəsfin yazır
Eşqin nəmazın qıldıran, niyyət özünsən dilbərim.

Sındırmışam peymanımı, gəlmir payım peymanədən
Mən sənlə sərməst olmuşam, ləzzət özünsən dilbərim.

Heç kim yıxanmaz könlümün, səndən qurulmuş ülfətin
Mən Məcnun'un Leylasısan, qismət özünsən dilbərim.

Bir kəlmə eşqindən desəm, aləm yerindən oynuyar
Sən kayinat fərmanlısan, qüdrət özünsən dilbərim.

Könlümdə canan təxtinin, can taclı bir sultanısan
Can adlı canan hökmüsən, vəhdət özünsən dilbərim.

Düşgünlüyündən saxlamır, könlüm deyir əsrarını
Heç zərrəyə sığmaz günəş, illət özünsən dilbərim.

Bir an görüş, minlər ilin yorqunluğun candan alar
Bir gün gələr, görrəm yəqin, möhlət özünsən dilbərim.

"HU"dərgəhindən feyz alan, "YA" məsnədindən məst olar
Camlarda meylər paylanır, şərbət özünsən dilbərim.

Yardan yaxın bir kimsə yox, yar könlünün dərdin bilən
Dərmanda dərdim vasl idir, himmət özünsən dilbərim.

Sandım ki, sən tək dilbərin, eşqində vurgun bir mənəm
Gördüm yazır *Elman* qəzəl, söhbət özünsən dilbərim.